**Əlamətlər XBX-nin ilk mərhələlərində olmaya bilər. Xəstəlik çox vaxt böyrəklərin funksiyası xeyli pisləşdikdə aşkar olunur.**

## Xroniki böyrək xəstəliyi müxtəlif ağırlaşmalara gətirib çıxara bilər

- anemiya (qan azlığı)
- perikardit (ürəyi əhatə edən qişaya mayenin yığılması)
- mədə-bağırsaq yolunun xoraları
- sümüklərin zədələnməsi
- ürək və ya ağciyər çatışmazlığı
- ürək ritminin pozulması
- infarkt və insult
- hamiləliyin fəsadlaşması

## Müalicə

Xroniki böyrək xəstəliyinin inkişafını ləngitmək və hətta qarşısını almaq olar. Bu məqsədlə duz və zülalların, tərkibi kalium ilə zəngin olan məhsulların qəbulunu məhdudlaşdırmaq məsləhət görülür.

Xəstəliyin gecikmiş mərhələlərində, yəni böyrəklərin funksiyası həddən artıq azaldıqda, hemodializ – “süni böyrək” aparatı vasitəsilə pasiyentin qanının müntəzəm olaraq mexaniki filtrasiyası və ya böyrək köçürülməsi əməliyyatı aparılır.

**Pasiyentin əsas vəzifəsi ümumi vəziyyəti və sidiyin miqdarı ilə bağlı özündə baş verən dəyişiklikləri vaxtında görmək və həkimə müraciət etməkdir. Pielonefrit, qlomerulonefrit, böyrəklərin anadangəlmə anomaliyaları diaqnozu təsdiq edilən xəstələr mütəmadi olaraq nefroloq tərəfindən müşahidə edilməlidirlər.**

## Profilaktik tədbirlər

- artıq çəkidən azad olmaq
- qanda xolesterinin səviyyəsini normaya salmaq
- tütünçəkmədən imtina etmək
- şəkərli diabet, yüksək arterial təzyiq və ya böyrəklərin xəstəliyi olduğu halda həkimin təyinatlarına ciddi riayət etmək
- böyrəyin xroniki xəstəliklərinin (pielonefrit, qlomerulonefrit, sidik daşı xəstəliyi) vaxtında müalicəsi

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ
Bakı, AZ1122, H.Zərdabi küç., 96
431 12 72 430 52 85 office@isim.az
www.isim.az

Buklet "2016-2020-ci illər üçün xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı"nın icrası ilə bağlı Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 4.1. bəndinə əsasən Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap olunmuşdur



# XRONİKİ BÖYRƏK XƏSTƏLİYİ SƏSSİZ QATİLDİR



# ÜMUMİ MƏLUMAT

**Xroniki böyrək xəstəliyi (XBX)** böyrək toxumasının tədricən məhv olmasıdır. Böyrəklərin funksiyasının tam itirilmə dərəcəsinə qədər azalması və büzüşməsi isə xroniki böyrək çatışmazlığı adlanır.

Böyrəklərin funksiyası orqanizmdə normal su-duz balansını qorumaq, həmçinin zülalların mübadilə məhsullarını orqanizmdən çıxartmaqdır. XBX zamanı qanın təmizlənməsi yetərincə olmur, bu da vaxt keçdikcə ağır fəsadlara gətirib çıxara bilir.

## Xroniki böyrək xəstəliyinin əmələ gəlmə səbəbləri

- şəkərli diabet
- yüksək qan təzyiqi (arterial hipertenziya)
- ateroskleroz (böyrək arteriyalarının divarlarında xolesterolun yığılması və normal qan dövranına maneə yaradılması)
- qlomerulonefrit (böyrək yumaqcıqlarında iltihab səbəbindən yaranan xəstəliklər qrupu)
- sidik daşı xəstəliyi (böyrəklərdə daşların yaranması)
- xroniki pielonefrit (böyrək toxumasının xroniki iltihabı)
- tuberkulyoz
- böyrəklərin anadangəlmə xəstəlikləri: polikistoz (kistaların yaranması), böyrəklərin inkişafdan qalması, böyrək arteriyalarının anadangəlmə daralması
- adenoma və ya prostat vəzin xərçəngi zamanı sidikqovucu yolların uzunmüddətli tutulması

## Xəstəliyin risk qrupuna aiddir:

- şəkərli diabeti olan şəxslər
- arterial təzyiqi yüksək olanlar
- yaşlılar
- böyrəklərin hər hansı bir xroniki xəstəliyi olanlar
- qanında xolesterinin səviyyəsi yüksək olanlar
- piylənməsi olanlar
- tütünçəkənlər
- qohumlarında xroniki böyrək xəstəliyi olan insanlar

## Xəstəliyin əlamətləri:

- ürəkbulanma, qusma, iştahın itməsi
- gecələr tez-tez sidiyəgetmə
- tez yorulma
- dəridə solğunluq, quruluq, güclü qaşınma
- yüksək qan təzyiqi (hipertoniya)
- əzələlərdə səyirmələr, bədənin müxtəlif yerlərində sancılar, qıcolmalar
- mədə-bağırsaq yolundan, diş ətindən, burundan qanaxmalar
- iştahın pozulması
- aybaşının olmaması (amenoreya)
- pəncələrdə və topuqda şişkinlik
- intellektual aktivliyin azalması